Səbahəddin Əli

# İçimizdəki şeytan

Tərcüməçi:
Nəriman Balakişiyev

qanun nəşriyyatı

**Sabahattin Ali**

# İçimizdeki şeytan

Ömər dostu Nihadla İstanbulda o biri sahilə keçərkən gənc qız görür və aşiq olur. Tanışlıq zamanı məlum olur ki, qızın adı Məcidədir və o, Ömərin uzaq qohumudur. Mədinənin 18 yaşı var, Ömərin xalasıgildə qalır və konservatoriyada oxuyur...

Roman ilk baxışdan nakam məhəbbət macərasını xatırladır. Əslində isə Türkiyədəki bütöv bir ziyalı nəslinin faciəsini anladır.

Qəhrəmanların xarakter və psixologiyası İkinci Dünya müharibəsi ərəfəsində gedən ictimai-siyasi mübarizə işığında açılır.

Əsər içimizdəki şeytanı, bəlkə də, olmayan şeytanı həssas və dərin psixoloji təhlil fonunda bizə göstərir. Həm də çox təsirli bir üslubda...

# I

Gündüz saat on birdə Kadıköydən[1] Körpüyə[2] doğru hərəkət edən gəminin göyərtəsində iki nəfər yan-yana əyləşib söhbət edirdi. Dolu bədənli, ağbəniz, açıq-qumral saçlı gənc göyərtənin qırağında, dənizə yaxın əyləşmişdi. Uzağı zəif gördüyü üçün hər şeyi ağır-ağır süzən, bağa çanağından sağanağı olan çeşməyin arxasında yarıyumulu görünən, qonur rəngə çalan gözləri gah yoldaşına, gah da sol tərəfə, günəşin şüalarına qərq olmuş dənizə zillənirdi. Geri itələnmiş papağının altından çıxan hamar, uzun saçları sağ qaşını və gözünün bir hissəsini örtmüşdü. Tez-tez danışır, sözlər ağzından çıxarkən gülümsəyən dodaqları cazibədar görünürdü.

Solğun sifətli, cılız bədənli o biri gənc qollarını əsəbiliklə oynadır, hər şeyi iti baxışlarla gözdən keçirirdi. Hər ikisi ortaboylu idi, yaşları iyirmidən artıq olmazdı.

Dolubədənli gənc gözlərini dənizdən çəkməyərək danışırdı.

– Özümü ələ almasaydım, qəhqəhə çəkib güləcəkdim. Tarix müəllimi sualları bir-birinin ardına düzüb

[1] Kadıköy – İstanbulun rayonlarından biridir (bu və sonrakı qeydlər tərcüməçinindir).
[2] Burada və sonra Körpü dedikdə Qalat körpüsü nəzərdə tutulur.

döşədikcə qız özünü itirir, kömək gözləyirmiş kimi dörd tərəfə baxırdı. Konspektlərini bircə dəfə də olsun açıb oxumadığını bildiyim üçün indicə kəsiləcəyini gözləyirdim. Birdən gözüm qızın arxasında əyləşən rəfiqəsi Ümidə sataşdı. Nə görsəm yaxşıdır? O, qaş-gözlə professora işarələr edirdi. Bilirsənmi, əzizim, istədiyinə də nail oldu. Professor oradan-buradan bir neçə sual verdi və suallara elə özü də cavab verib, qızı mürəxxəs etdi.

– Olmaya, professor bizim Ümid xanımın sözü ilə oturub-durur?

– Xeyr, xasiyyətidir, heç bir qıza laqeyd baxa bilmir... Suyu bir az şirin oldumu... – əlini yoldaşının dizinə vurub elə bil söhbətinin ardına davam edərək, – həyatdan bezmişəm... – dedi. – Hər şeydən zəhləm gedir. Məktəbdən də, professorlardan da, dərslərdən də, yoldaşlardan da... Hələ qızları demirəm... Onların hamısı məni son dərəcə bezikdirib...

Bir müddət susdu və əliylə çeşməyini oynadıb sözünə davam etdi:

– Heç nə istəmirəm, heç nə məni cəzb etmir. Gündən-günə miskinləşdiyimi hiss eləyirəm, amma buna da sevinirəm. Ola bilsin ki, bir müddətdən sonra bu ürək sıxıntısını hiss etməyəcək, süstlüyə və fəaliyyətsizliyə düçar olacağam. Axı insan nə iləsə məşğul olmalıdır! Həm də elə bir işlə ki... Əks halda, o, hər şeydən əl çəkməlidir. Fikirləşirəm, axı əlimizdən nə gəlir? Heç nə... Yaşı milyon illərlə hesablanan bu dünyada ən qədim əşyanın yaşı iyirmi min ildir... Hələ bu rəqəmin özü də şübhəlidir, şişirdilib. O gün fəlsəfə müəllimimizlə söhbət edirdim. Çox ciddi bir məsələdən söz açdım və "varlığımızın mənası"nı araşdırmağa çalışdım. Dünyaya nə

üçün gəldiyimizi soruşdum, sualıma cavab vermədi. Yaradıcılıq zövqündən, həyatın öz-özlüyündə müəyyən məna kəsb etdiyindən dəm vurdu. Çürük fikirlərdir. Axı nə yaradasan? Yaratmaq – yoxdan var etmək deməkdir. Ən ağıllı adamlarımızın başı bizdən əvvəl yaşamış insanların qazandıqları bilik və təcrübələr saxlanan bir anbardır. Yaratmaq istədiyimiz şeylər çoxdan mövcuddur və bu da mallara yeni bir bəzək vurub, onları bazara çıxarmaqdan başqa bir şey deyildir. Başa düşürəm, bu mənasız, gülünc hərəkət adamı necə razı sala bilər? İşığı bizə beş min ildən sonra gəlib çatan ulduzlar mövcud olduğu halda, ən uzağı əlli ildən sonra kitabxanalarda çürüyəcək və beş yüz ildən sonra adları belə unudulacaq əsərlər yazmaq, ədəbiyyat haqqında düşünüb çalışmaq, yaxud üç min ildən sonra əlsiz-ayaqsız bir heykəli muzeydə nümayiş etdirsinlər deyə ömrünü palçıq yoğurmaqla, mərmər ovmaqla keçirməyi, məncə, heç də çox ağıllı bir iş hesab etmək olmaz...

Səsinin ahəngini dəyişib, mənalı-mənalı və ağır-ağır söylədi:

– Məncə, əlimizdən yalnız bircə şey gələr: o da ölümə tabe olmaqdır. Ancaq bu məsələdə iradəmizi tamamilə nümayiş etdirə bilərik. Soruşa bilərsən: bəs niyə dayanmısan? Axı dedim ki, mən dəhşətli bir süstlüyə, tənbəlliyə düçaram. İxtiyarım əlimdə deyil, ətalət qanununa tabeyəm, sürünə-sürünə gedirəm, eh-h-h!

Ağzını geniş açıb əsnədi. Ayaqlarını qabağa uzatdı. Qarşı tərəfdə əyləşib erməni qəzeti oxuyan yaşlı kişi ikrah hissi ilə üz-gözünü turşutdu, gənci tərs-tərs süzdü. Gəncin yoldaşı indicə deyilən sözləri bəlkə də onuncu dəfə eşitdiyinə görə söhbətə qulaq asmayır, ətrafı göz-

dən keçirir, beynində dolaşan fikirləri elə bil bir yerə cəmləməyə çalışır, arabir qaşlarını çataraq dodaqlarını tərpədirdi. Yoldaşı susan kimi o, mənalı-mənalı gülümsünüb dedi:

– Ömər, pulun var? Olsaydı, bu axşam bir rakı[1] içərdik.

Ömər bir az bundan əvvəlki yekəxanalığına yaraşmayan bir şəkildə:

– Yoxdur, – dedi. – Lakin bir nəfərdən alarıq. Bu gün idarəyə baş çəksəydim, hər şey düzələrdi, amma oraya getməyə həvəsim yoxdur.

Cılız gənc istehza ilə başını buladı:

– Səni bu yaxında oradan qovacaqlar. Axı bu dərəcədə də tənbəllik etmək olar? Bütün idarələr universitetdə təhsilini davam etdirən məmurlardan yaxalarını qurtarmaq üçün bəhanə axtarır. Xüsusilə poçt sahəsində işləyənlərin, sənin kimilərinin vəziyyəti çox pisdir, çünki orada vaxt hər şeydən qiymətlidir, yaxud da belə hesab edirlər. – Sonra gülə-gülə əlavə etdi: – Amma gəl gör ki, Bayaziddən[2] göndərdiyimiz məktublar Eminönüyə[3] qırx səkkiz saata çatır. Sağ olsun sənin kimi qeyrətli məmurlar!

Ömər çox sakit-sakit:

– Məktublarla əlaqəm yoxdur, – dedi. – Mən mühasibatda işləyirəm. Axşamadək rəqəm köçürməklə məşğul oluram. Axşamlarsa kassirə kömək edirəm. Pul saymaq adama ləzzət verir, Nihadcan.

Nihad birdən sanki dirçəldi:

---

[1] Rakı – cirə qarışdırılmış araq.
[2] Bayazid – İstanbulda rayon.
[3] Eminönü – İstanbulda rayon.

– Maraqlı işdir, ümumiyyətlə, pul özü maraqlı şeydir. Çox vaxt cibimdən bir lirə çıxarıb qarşıma qoyur, uzun-uzadı tamaşa edirəm. Əslinə baxsan, onda fövqəladə heç nə yoxdur. Məktəblərdə keçilən rəsmxət dərslərində öyrədilən cizgilərə oxşar, lakin azacıq nazik və bacarıqla çəkilmiş qarışıq cizgiləri olur... Üstündə də bir şəkil... Sonra da bir neçə cümlə və bir neçə imza... Adam başını bir az aşağı əyib baxanda burnuna çirk və yağ iyi dəyir. Amma, əzizim, düşünürsən ki, bu çirkli kağız nə qədər də güclü şeydir! – Bir anlığa gözlərini yumdu. – Məsələn, günlərin birində ürəyin bərk sıxılır, az qala boğulursan. Həyat sənə qaranlıq və mənasız görünür. Sənin bir az bundan əvvəl etdiyin kimi, mənasız fəlsəfələrlə məşğul olmağa başlayırsan. Sonra yavaş-yavaş bundan da əl çəkib, heç ağzını da açmaq istəmirsən. İnanırsan ki, heç kəs, heç bir əyləncə ürəyini aça bilməyəcək. Hava da sənə cansıxıcı və mənasız görünür. Onun çox isti, çox soyuq, yaxud yağışlı olub-olmamasının əhəmiyyəti olmur. Beş-on quruş dalınca qaçan adamlar bir çəngə ot axtararkən dilləri ağızlarından bir qarış çıxmış keçilər kimi səni laqeyd-laqeyd süzüb yanından ötüb-keçirlər. Ağlını başına yığıb bu acınacaqlı vəziyyəti təhlil etmək istəyirsən. İnsan ruhunun sirri açılmaz düyünləri müəmma kimi qarşında canlanır, kitablarda oxuduğun "depressiya" kəlməsindən bir xilasedici kəmər kimi yapışırsan. Çünki nədənsə hamımızda, istər maddi, istərsə də mənəvi olsun, fərqi yoxdur, bütün dərdlərimizə bir ad qoymaq marağı vardır və bunu etməsək, tamam dəli olarıq. İnsanlarda bu maraq olmasa, həkimlər acından ölərlər. Bu "depressiya" kəlməsindən yapışıb ürək sıxıntısının sahilsiz dənizində boğularkən

qarşında uzun müddətdən bəri görmədiyin bir dostun peyda olur. Onun yaxşı geyindiyini görən kimi tez pulsuzluğun yadına düşür və bəxtin gətirsə, dostundan bir-iki lirə borc alırsan... Və bundan sonra sanki möcüzə baş verir. Güclü bir küləyin ruhundakı qalın dumanı dağıtdığını, qəlbinin birdən-birə aydınlaşdığını görür, yüngüllük, genişlik hiss edirsən. Əvvəlki ürək sıxıntın bir quş kimi uçub yox olur. Ətrafına razılıqla baxıb, boşboğazlığına qulaq asacaq bir yoldaş axtarmağa başlayırsan. Beləliklə, əzizim, cildlərlə kitabların, saatlarla fikirləşmənin eləyə bilmədiyi işi iki çirkli kağız həll edir. Doğrudur, sən bunu özünə sığışdıra bilmirsən ki, ruhumuz nə üçün bu cür ucuz şıltaqlıqlar edir. Səndəki bu dəyişikliyin səbəbini buludların bir neçə yüz metr yuxarı qalxmasında, arxanda sərin küləyin əsməsində, yaxud da başına ağıllı bir fikrin gəlməsində görürsən. Halbuki bunun əsl səbəbi tamamilə başqa şeydir. Daha doğrusu, havanın bir az açıldığını görmək, küləyin sərinliyini hiss etmək, hətta başına ağıllı bir fikrin gəlməsi cibinə iki lirənin girməsi ilə əlaqədar olur. Qalx ayağa, əzizim, Körpüyə çatdıq. Günlərin birində biz ya ağlımızı itirəcəyik, yaxud da dünyaya hakim olacağıq. Hələlik isə bir rakı almaq üçün pul tapmağa çalışaq və parlaq gələcəyimizin şərəfinə bir neçə qədəh içək.

## II

Nihad sözünü qurtarıb ayağa qalxanda Ömərin yerindən heç də tərpənmədiyini gördü. Əliylə çiyninə vurdu. Ömər azacıq diksinən kimi oldusa da, halını pozmadı. "Olmaya, yuxuya getdi", – deyə əyilib üzünə baxmaq